Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Təbiət aşiqi Mikayıl Rzaquluzadə

**Mikayıl Rzaquluzadənin 115 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı - 2020**

**Tərtibçilər:** **Aynurə Əliyeva**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova** *Əməkdar mədəniyyət işçisi*

**Təbiət aşiqi Mikayıl Rzaquluzadə***:* Mikayıl Rzaquluzadənin 115 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed.A.Əliyeva; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K. Ağazadə. -Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2020.- 27 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2020**

## Tərtibçidən

*Şairlər və qəhrəmanlar bir tayfadır. Onların arasındakı fərq ideya və əməl arasındakı fərq kimidir. Qəhrəmanlar şairlərin seyr etdiklərini həyata keçirirlər.*

*Alfans de Lamartin*

Sözə sığal çəkmək, onu mənalandırmaq olduqca çətindir. Bu yolda hər kəs uğur qazana bilmir. Yalnız istedadı olan şəxslər müvəffəqiyyət əldə edir. Əsrdə bir dəfə yetişən belə insanlar dünya ədəbiyyatı üçün ölməz əsərlər miras qoyur. Bəşəriyyət belə əsərlərlə qaranlıqdan aydınlığa çıxıb. Həmin insanlar unudulmur. Unudulsa belə sözləri əbədi yaşayır. Tarix göstərir ki, qəhrəman və mütəfəkkirlər həmişə bizlədir. Burada şairlər xüsusi ilə fərqlənir. Şairliyin tarixi çox qədimdir. Onların əsər və şeirlərində böyük tarix var. Əsrlərin dərdi, qəmi, kədəri, sevinci, qubarı onların şeirlərində cəmlənib. Bu baxımdan əsrlər boyu poeziya insan taleyi üçün mühüm rol oynayıb.

Poeziyanın insan taleyi ilə yanaşı, insan ömrünə də misilsiz faydası var. Şeir bizə düzgün yol göstərib, haqqı nahaqdan ayırıb, ədaləti üzə çıxarıb, qəmimizi azaldıb, yaşamı öyrədib, tərbiyəmizi zənginləşdirib, gözəlliyi sevdirib və təbiət-insan arasında qırılmaz tellər yaradıb. Xoş günümüz və dərdimiz poeziyasız keçməyib. Bir xalq olaraq poeziyanın dərin ənənələrinə malikik. "Şeirsiz həyat olmaz", – desək, bəlkə də, yanılmarıq. Şeir ilhamdı, yenilikdi, haqq carçısıdır. Vaxtı ilə ilk dərsimizi şeirlə almışıq. Şeir döyünən, çırpınan ürəyin həyacanını ağ kağıza köçürülməsidir. Şeir deyərkən göz önünə ilham pərisi ilə yanaşı həyacanlı ürək gəlir. Şeir Göyün hökmünü Yerə çatdırır. Göylər istəyini şeirlə dilə gətirir.

Ümumiyyətlə, elmin milliyyəti, dini və sərhədi yoxdur. Elm ümmansız dənizdir. Bu sözləri poeziya üçün də demək olar.

Poeziya insan təfəkkürünün nəzəri biliklərlə cilalanaraq ağ kağıza köçməsidir. Şübhəsiz ki, şair vergili insandır. Günümüzdə çoxlu şair işıqlı dünyaya şeirlər bəxş edir. Azərbaycan ədəbiyyatının müxtəlif dövrlərində bu cür şairlərin yaradıcılıq nümunələrinə çox rast gəlirik. Elə şairlərdən biri də "Nəsillərdən nəsillərə" yazaraq böyük poeziya meydanında dövrün, zamanın gərdişinə sinə gərən, minlərlə oxucu kütləsinin böyük sevgiylə qarşıladığı şair publisist, fərqli poetik düşüncə adamı Mikayıl Rzaquluzadədir. Mikayıl Manaf oğlu Rzaquluzadə çağdaş Azərbaycan ədəbiyyatında şair, nasir, ədəbiyyatşünas, dünya klassikasının kamil tərcüməçisi və nəhayət, uşaq ədəbiyyatının yaradıcısı kimi tanınmış, 60 illik ardıcıl ədəbi fəaliyyəti dövründə zəngin bir irs qoyub getmişdir.

Mikayıl Rzaquluzadənin yaradıcılıq simasını səciyyələndirərkən deyə bilərik ki, onun istər uşaqlar, istərsə də yaşlılar üçün yazdığı bütün əsərlərində biz təkcə istedadlı şair qəlbini deyil, həm də həssas, sevən, sevilən bir pedaqoqun qəlb çırpıntılarını görüb hərarətlə səmimiyyətini duyuruq.

Gözəl, mənalı olduğu qədər dolu-dolu yaradıcılıq uğurları ilə zəngin həyat sürən görkəmli yazıçı Mikayıl Rzaquluzadənin bu il 115 illik yubileyi qeyd olunur. Bu münasibətlə bu vəsaiti işləməyi özümüzə borc bildik. Vəsait iki hissədən ibarətdir. I hissə onun həyatından bəhs edir. II hissədə isə ədibin yaradıcılığından bəhs edən tədbirlərdən söhbət açılır.

## Həyat və yaradıcılığı

Azərbaycanın qabaqcıl maarif xadimi, əmək veteranı, görkəmli yazıçı və nasir, istedadlı tərcüməçi Mikayıl Rzaquluzadə 17 mart 1905-ci ildə Bakıda anadan olmuşdur.

İbtidai təhsilini yeni üsullu “Mədrəsəyi-nur” məktəbində və mollaxanada alıb.
Ədəbi yaradıcılıq fəaliyyətinə 1923-cü ildə çıxan “Müəllim” şeirilə başlayan Mikayıl Rzaquluzadə, eyni zamanda, “Gənclik” nəşriyyatında, “Göyərçin” jurnalı redaksiyalarında da çalışmışdır. Onun “Qaranquş yuvası” (1945), “Ağ dana” (1945), “El gücü” (1948), “Qu gölü” (1955), “Ovçu Elşənlə qoçaq Aytəkinin nağılı” (1956), “Nəsillərdən nəsillərə” (1965), “Ürəkdə izlər” (1969), “Quş dili bilən Orxan” (1972), “Yaz günəşi” (1977), “İlin yazı-elin sazı” və s. kitabları uşaq və gənclərin sevərək mütaliə etdiyi əsərlərdir.

Dünya xalqları ədəbiyyatının onlarla nümayəndələrinin əsərlərini, o cümlədən T.Oldricin “Amerika məktəblilərinin xatirələri”, R.Kiplinqin “Mauqli”, V.Mayakovskinin “Seçilmiş şeirləri və poemaları”, V.Biankinin “Biz çoxuq”, V.Vasilevskayanın “Göyqurşağı”, V.Q.Belinskinin “Seçilmiş əsərləri” ni, İ.S.Turgenevin “Ovçunun xatirələri”, “Atalar və oğullar”, “Ərəfə”, A.Dümanın “Üç müşketor”, M.Qorkinin “Uşaqlıq”, C.Sviftin “Qulliverin səyahəti”, L.N.Tolstoyun “Dirilmə”, V.Latsisin “Balıqçı oğlu”, C.Londonun “Hekayələri” ni, C.Rodarinin “Çippolino” və s. əsərləri Azərbaycan dilinə tərcümə etmişdir. Nizaminin “İsgəndərnamə” əsərinin 1941 -ci il tərcümə nəşri də ona aiddir.

Ümumiyyətlə, tərcümə kitablarının sayı 60-dan çox olan Mikayıl Rzaquluzadə “H.Heyne və faşizm”, “Rabindranat Taqor”, “Bayron və müasirlik” və s. kimi məqalələrin də müəllifidir.

Birinci Azərbaycan Ali Pedaqoji İnstitutu nəzdində “A.Şaiq adına nümunə məktəbi” nə çevrildi. O, həmin məktəbin son sinfində ikən ekstern imtahan verib Ali Pedaqoji İnstitutun tarix fakültəsinə daxil olmuşdur. Bütün təhsil müddətində

müvazi olaraq: Azərbaycan hərbiyyə-bəhriyyə komissarlığında rabitəçi (1920-1921), Bakı vilayət hərbi komissarlığında jurnalist (1922-1923), Bakıda Sabir adına kitabxanada və fəhlə rayonlarının kitabxanalarında kitabxanaçı, Bakı mərkəzi kitabxanasında kollektor müdiri, pedaqoji institut kitabxanasının müdir müavini, müdiri vəzifələrində işləmişdir (1926-1927). İnstitutu bitirdikdən sonra Gəncə pedaqoji texnikumunda, həm də fəhlə fakültəsində ədəbiyyat və pedaqogika-psixologiya müəllimi işləmişdir (1927-1931). Bu dövrdə Gəncə müəllimlər evində ədəbiyyat dərnəyinin rəhbəri, "Qızıl Gəncə" jurnalı redaksiya heyətinin və Azərbaycan Proletar Yazıçıları İttifaqı Gəncə şöbəsinin büro üzvü və s. ictimai işlərdə çalışmışdır. Moskvada İkinci Dövlət Universiteti yanında olan Pedaqoji Psixologiya-Pedologiya Elmi-Tədqiqat İnstitutunun aspiranturasında təhsil almışdır (1931-1934). Eyni zamanda SSRİ Xalq Komissarları Şurası yanında qanun və qərarlar nəşriyyatının Azərbaycan şöbəsində tərcüməçi və stenoqrafiya kurslarında ədəbiyyat müəllimi işləmişdir. Bakıda Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutunda uşaq ədəbiyyatı sahəsində elmi işçi, "Azərnəşr"də tərcüməçi və redaktor olmuş, qısa fasilələrlə "İnqilab və mədəniyyət" jurnalı redaksiyasında məsul katib, "Azərbaycanfilm" kinostudiyasında, Xarici Ölkələrlə Mədəni Əlaqələr Cəmiyyətində baş redaktor, "Azərbaycan" jurnalı redaksiyasında baş redaktorun müavini vəzifələrində çalışmışdır. İlk məqaləsi isə 1926-cı ildə "Maarif işçisi" jurnalında "Cocuq ədəbiyyatında üsul məsələsi" adı ilə dərc olunmuşdur. Müxtəlif mövzularda yazıb-yaratsa da, 1945-ci ildən başlayaraq bütün kitablarını uşaq və gənclər üçün nəzərdə tutmuşdur. Yaradıcılığında bədii tərcüməyə geniş yer vermişdir. Dünya və keçmiş SSRİ xalqlarının ədəbiyyatından tərcümələr etmişdir. "Gənclik" nəşriyyatının, "Göyərçin",

"İnqilab və mədəniyyət" (sonralar "Azərbaycan") jurnalları redaksiya heyətinin, "Azərbaycan dilinin izahlı lüğəti" nin redaksiya heyətinin, Azərbaycan Yazıçılar İttifaqı qəbul komissiyasının üzvü olmuşdur. Ədəbiyyat sahəsində xidmətlərinə görə iki medal, üç dəfə Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilmişdir. Çuvaş MSSR Mədəniyyət Nazirliyinin və digər təşkilatların fəxri tərifnamələri ilə təltif edilmişdir. 1984-cü il noyabrın 10-da Bakıda vəfat etmişdir. Bakı küçələrindən birinə onun adı verilmişdir.

***Əsərləri***

1. Qaranquş yuvası. Bakı: Azərnəşr, 1945, 48 səh.
2. Ağ dana. Bakı: Azərnəşr, 1945, 14 səh.
3. El gücü. Bakı: Uşaqgəncnəşr, 1948, 104 səh.
4. İstək. Bakı: Uşaqgəncnəşr, 1949, 103 səh.
5. Dan söküləndə. Bakı: Uşaqgəncnəşr, 1952, 84 səh.
6. Sirli saz. Bakı: Uşaqgəncnəşr, 1955, 17 səh.
7. Qu gölü. Bakı: Uşaqgəncnəşr, 1955, 144 səh.
8. Ovçu Elişlə qoçaq Aytəkinin nağılları. Bakı: Uşaqgəncnəşr, 1956,
9. Ölkənin çiçəkləri. Bakı: Uşaqgəncnəşr, 1962, 178 səh.
10. Nəsillərdən nəsillərə (bircildlik seçilmiş əsərlər). Bakı: Azərnəşr, 1965, 495 səh.
11. Salam Adil. Bakı: Maarif, 1966, 76 səh.
12. Hekayələr. Bakı: Maarif, 1967, 16 səh.
13. Dəniz nağılı. Bakı: Uşaqgəncnəşr, 1967, 16 səh.
14. Baharın elçiləri. Bakı: Gənclik, 1968, 14 səh.
15. Ürəkdə izlər. Bakı: Gənclik, 1969, 205 səh.
16. Quş dili bilən Orxan. Bakı: Gənclik, 1972, 126 səh.
17. Cücə getdi su içə. Bakı: Gənclik, 1973, 12 səh.
18. Yaz günəşi (bircildlik seçilmiş əsərlər). Bakı: Gənclik, 1977, 268 səh.

19.İlin yazı – elin sazı (şeirlər, poemalar, rəvayətlər və nağıllar). Bakı: Gənclik, 1981, 256 səh.
20.Babəkin andı. Bakı
21.Aqşinin andı. Bakı

İstedadlı ədib Mikayıl Rzaquluzadənin anadan olmasının 115 illik yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər, kitab müzakirəsi, oxucu konfransı, rəsm və şeir müsabiqəsi, ədəbi-bədii gecə keçirilə bilər. Ədibi sevdirmək, yaradıcılığını gənc nəslə və şagirdlərə tanıtmaq məqsədilə kitabxanada ilk növbədə müxtəlif başlıqlar altında kitab sərgisi təşkil olunmalıdır. Bunlardan "Nəsillərdən nəsillərə" "Yaddaşdakı günlərin işığı", "Təbiət aşiqi – Mikayıl Rzaquluzadə", "El gücü" və s. misal göstərmək olar.













## Görkəmli şəxsiyyətlər Mikayıl Rzaquluzadə haqqında

Qocaman ədib M.Rzaquluzadənin öz müşahidələrindən çıxardığı bu nəticə tamamilə doğrudur ki, uşaqlar müasir elmin ən yeni kəşfləri ilə yaxından maraqlandıqlarına baxmayaraq, nağıllar dünyasının cazibəsindən də ayrıla bilmir, bu texniki tərəqqi zamanında da zümrüd quşunun və Məlikməmmədin sehirli dünyasını sevirlər.

**Bəkir Nəbiyev,**
*akademik*

Mikayıl yeni fikir üçün həmişə yeni və orijinal forma axtaran yazıçıdır. Yeni həyatın təsviri və yeni fikirlər üçün yeni forma, yeni vasitələr lazımdır. Bu müasir sovet ədəbiyyatının tələbidir.

Mikayılın əsərlərində müasir həyat hissi də çox qüvvətlidir. O, nədən və nə vaxt yazmaq zərurətini vaxtında duyur. Uşaq mühitini həssaslıqla müşahidə edir. Məhz buna görədir ki, onun kitabları uşaqlar tərəfindən maraq və həvəslə oxunur.

Mikayıl məhsuldar yazıçıdır. Deyə bilərəm ki, son illərdə uşaqlar üçün ən çox yazan yazıçılardan biri, bəlkə də birincisi Mikayıldır. O, bu sahəyə gənclikdən gəlmişdir. İndi isə çal saçlı qocaman bir yazıçıdır. Yaşına görə çox energiyası var. Bu təsadüfi deyildir. Çünki onun ilham mənbəyi tükənməzdir. Kiçik nəslin böyük işləri, qaynar həyatı ona hər dəfə yeni ilham, yeni qüvvət və yeni həvəs verir.

**Qılman Musayev,**
*Xalq yazıçısı*

Mikayıl Rzaquluzadənin yaradıcılığı bütövlükdə uşaq və gənclərin təlim və tərbiyəsinə, ən vacibi isə onlara əməyi sevdirməyə xidmət edir. Təbiətin füsunkar gözəlliyini dərk

etməyi, ondan zövq almağı, heyvanlar aləminin maraqlı sirlərini uşaq və gənclərə öyrətmək üçün M.Rzaquluzadə xeyli müşahidələr aparmış, bu problemin bədii həllini tapmış və maraqlı əsərlər yazmağa müvəffəq olmuşdur.

M.Rzaquluzadənin əsərlərinin qiymətli cəhətlərindən biri, həm də ən vacibi, dilinin sadəliyi, səlisliyi və rəvanlığıdır. Uşaqların söz ehtiyatının çoxalmasında, lüğət fondunun zənginləşməsində onun hekayələri böyük əhəmiyyət kəsb edir.

**Aydın Hacıyev,**
*filologiya üzrə elmlər doktoru*

M.Rzaquluzadənin şeirlərində humanistlik, əxlaqilik, xeyirxahlıq daha qabarıq nəzərə çarpır, süjetli əsərləri ciddi tərbiyəvi nəticələrlə tamamlanır.

**Xanım Mustafayeva,**
*filologiya üzrə fəlsəfə doktoru*

M.Rzaquluzadənin "Mənim çiçəyim" şeiri Ümumdünya gənclər festivalı münasibətilə yazılmış və bütün dünya gənclərinin dostluq, qardaşlıq, həmrəylik münasibətini tərənnüm edir.

Şair həmrəy olan dünya gənclərini rəngbərəng ləçəkləri olan bir çiçəyə bənzədir. Beş qitə gənclərinin rəmzi olan bu rəngbərəng çiçəkləri böyük dostluğun vəhdəti kimi verilən bir okean birləşdirir.

**Əli Mirzəyev,**
*ədəbiyyatşünas*

M.Rzaquluzadənin uşaq əsərləri folklorla sıx bağlıdır. Belə ki, ədibin bir çox uşaq əsərlərində bilavasitə şifahi xalq ədəbiyyatına müraciət edilir, folklor mövzuları və janrlarından yaradıcılıqla istifadə olunur. Həmin əsərlərdə folklora xas olan

xüsusiyyətlər dilin aydınlığı, axıcılığı, şirinliyi, eləcə də xeyirxahlıq, düzlük, mübarizlik, əməksevərlik, qəhrəmanlıq kimi mənəvi keyfiyyətlərin xalq deyim tərzində ifadəsi diqqəti cəlb edir. Bu da öz növbəsində uşağın təfəkkürünün, təxəyyülünün inkişafına gətirib çıxarır, uşaq ədəbiyyatının üslubi imkanlarını genişləndirir.

**Bilal Həsənli,**
*ədəbiyyatşünas*

M.Rzaquluzadə öz hekayə və şeirlərində uşaqları Azərbaycan təbiətinin gözəllikləri, zənginlikləri, çöl heyvanları və quşlarının həyatı ilə tanış edir. M.Rzaquluzadə bu şeirlərində uşaqlara nəcib hisslər aşılayır, quşların həyat tərzi, yaşayışı haqqında maraqlı məlumat verir. Ümumiyyətlə, onun əsərlərində qurub-yaratmaq kimi nəcib arzular geniş təbliğ olunur.

**Camal Əhmədov,**
*ədəbiyyatşünas, alim*

M.Rzaquluzadənin yaradıcılığında təlim-tərbiyə, mənəvi-əxlaq, məktəb və ailə məsələləri əsas rol oynayır. Oxucuya nəcib hisslər aşılamağa çalışan şair, uşaqlara faydalı əməyin mənasını açmağa səy göstərir, gördükləri bu işlərdən zövq almaq istəyində olur.

M.Rzaquluzadə uşaq psixologiyasını dərindən bildiyinə görə təsvir etdiyi hadisələrin təbii təzahürünü yazıçı məharəti ilə əks etdirir. Onun tərənnümündə təbiət olduqca gözəl və canlı görünür. Bununla yanaşı, yazıçının təsvir etdiyi uşaq obrazları təbiət hadisələrini maraqla izləyir, onun xassələrini dərindən öyrənir.

M.Rzaquluzadə xalq nağıllarına xas olan ümumi təsvirçiliyi bəzən çox ustalıqla zənginləşdirir, konkret vəziyyət və anları

təsvir etməyə üstünlük verir. Öz təsvirlərində portretlər yaradır, hadisələrin gedişini bir növ əyaniləşdirir.

**Zahid Xəlil,**
*professor*

Mikayıl Rzaquluzadə həyata pedaqoq gözü ilə baxdığında, onun uşaq şeirlərinin, hekayələrinin hamısının tərbiyəvi əhəmiyyəti vardır. Başqa sözlə desək, müəllif hansı mövzuda əsər yazırsa yazsın, hansı süjetdən istifadə edirsə etsin, onun yaradıcılıq nümunələri uşaqları zəhmətsevər, təmizkar, doğruçul olmağa, vətəni dərin məhəbbətlə sevməyə, böyüklərə ehtiram göstərməyə, nəzakətli davranmağa, vaxtın qədrini bilməyə, dostluqda sədaqətə səsləyir.

**Rafiq Yusifoğlu,**
*professor*

M.Rzaquluzadənin yazıçı kimi istedadının gücü və bədii qüdrəti onda idi ki, o qədim epik poetika ilə çağdaş dövrün estetik ideallarını bir-birinə qovuşdurmağı, onların vəhdət nöqtəsini tapmağı bacarmış və müasir ədəbiyyatımızda "Dədə Qorqud" ənənələrinin çox uğurlu başlanğıcını qoya bilmişdi.

**Yeganə İsmayılova,**
*professor*

M.Rzaquluzadə bir nasir kimi uşaqlara yeni bir söz deməyə, həyatı, hadisələri daha sadə və maraqlı şəkildə oxuculara çatdırmağa çalışan, yaradıcılıq axtarışlarına xüsusi qayğı ilə yanaşan istedadlı yazıçıdır. Uşaqların və gənclərin tərbiyəsi işində onun hekayələrinin əhəmiyyəti böyükdür.

Doğma vətəni balaca uşaqlara sevdirmək M.Rzaquluzadə şeirlərinin əsas ruhunu təşkil edir. Doğrudur, M.Rzaquluzadə nəsrə daha çox meyl göstərsə də, onun şeirlərində uşaq aləmi,

əməyə və birliyə maraq, yoldaşlıq, dostluq münasibətləri daha dolğun, təsirli verilmişdir.

**Qara Namazov,**
*professor*

Kitabxanada Mikayıl Rzaquluzadənin 115 illik yubileyi ilə əlaqədar kitablarından ibarət sərgi təşkil olunur. Kitabxanaçı sərginin ətrafında oxucularla söhbət keçirir. Kitabxanaçı öz çıxışından sonra yazıçının sanballı ömür yolu haqqında dəyərli məlumatlarla birgə Mikayıl Rzaquluzadənin müxtəlif illərdə nəşr olunmuş kitabları və onların annotasiyası haqqında məlumat verir. Mikayıl Rzaquluzadənin kitablarından təşkil olunan sərgi oxucular tərəfindən maraq və rəğbətlə qarşılanır. Bütün bunlarla yanaşı kitabxanaçı həm də onun bir çox ədiblərə həsr etdiyi kitabları ilə də iştirakçıları tanış edir.

***Kitabxanaçı:*** Mən bir quşam-
Odlar quşu!
Mən odlardan-alovlardan doğulmuşam!
Ümidlərdən, əməllərdən yoğrulmuşam!
İnsanları köləlikdən qurtarmağa
Özlərini oda atan
Ürəklərdə yaşaram mən.
Mən bir quşam-
Odlar quşu!




Sərgidə yer alan ilk kitab "Yaz günəşi" Gənclik. Bakı.1977-ci il. Adlı kitabdır. Oxuculara təqdim etdiyimiz "Yaz günəşi" kitabı Mikayıl Rzaquluzadənin 70 illik yubileyi münasibəti ilə çap olunur. Burada toplanmış bədii nümunələr onun 50 illik yaradıcılıq axtarışlarının məhsuludur.

Kitabda gedən əsərlərin başlıca mövzusu sovet adamlarının şən, firavan həyatı, işıqlı, romantik duyğu və düşüncələridir.

“Sayrışan ulduzlar”- xatirələr sevimli Xalq şairimiz Səməd Vurğuna həsr edilmişdir.




Sərgidə yer alan digər kitab “Seçilmiş əsərləri” dir. Bakı, “Şərq-Qərb”, 2006, 312 səh. Azərbaycan nəsrinin tanınmış yazıçısı, pedaqoq və tərcüməçisi sayılan Mikayıl Rzaquluzadənin “Seçilmiş əsərləri” nə, ustad sənətkarın altmış illik yaradıcılıq axtarışlarının məhsulları olan və geniş oxucu kütləsi tərəfindən sevilən və rəğbətlə qarşılanan şeirləri, satiraları, rəvayətləri, mənzum nağılları, poema və hekayələri daxil edilmişdir. Bu əsərlərin başlıca mövzusu Yer kürəsinin əşrəfi sayılan insanın şən, firavan həyatı, işıqlı, romantik duyğu və düşüncələridir.






Sərgidə yer alan növbəti kitab “El gücü” adlanır. El gücü"Dədə Qorqud" boyları üzrə hekayələr / M. M. Rzaquluzadə ; red. M. C. Cəfərov ; rəs. Q. Xalıqov. - Bakı : Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, 1948. - 119 s.

*"Bərpa-nəşr"*

El gücü"Dədə Qorqud" boyları üzrə hekayələr / M. M. Rzaquluzadə ; burax. məs. Ş.Qəmbərova ; red. Z.Dadaşova ; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.

F.Köçərli adına Respublika Uşaq Kitabxanası - Bakı : "Nağıl Evi N", 2016.-119 s.

Təkrar çap zamanı ilk nəşrin kitab göstəriciləri olduğu kimi saxlanılmışdır.

Kitaba "Kitabi Dədə-Qorqud" dastanından bəzi qəhrəmanlıq hekayələri daxil edilmişdir.

Mikayıl Rzaquluzadənin yubileyi ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən biri **"Vətən nəğməsi"** adlı *şeir müsabiqəsi* ola bilər. Kitabxanaçı öncə şairin bir neçə şeir kitabını məktəblilərə təqdim edir. Məktəblilər müəyyən etdikləri şeiri əzbərləyərək təyin edilmiş tarixdə kitabxanaya gəlirlər. Qonaqlar və münsiflər öz yerini aldıqdan sonra kitabxanaçı hər kəsi salamlayaraq tədbirə başlayır. Şairin həyat və yaradıcılığından, onun ömür yolundan, əsərlərindən və kitablarından qısa məlumat verir. Nəfis şəkildə nəşr olunmuş kitablar hər kəs tərəfindən rəğbətlə qarşılanır.

Kitabxanaçının ədib haqqında söylədiyi dəyərli məlumatlardan sonra iştirakçılar müəyyən ardıcıllıqla səhnəyə dəvət olunurlar.

İlk olaraq birinci iştirakçı "Boz Bülbülün nəğmələri" adlı şeiri qiraətli bir şəkildə deməyə başlayır.

Yay qurtardı, gəldi payız;
Səhər-axşam hava sərin,
Şux rəngləri soldu bütün
Yarpaqların çiçəklərin.
Sarı-qızıl rəngə çaldı
Çəmənlər də, ağaclar da;
Şirələnib dada gəldi
Alma-armud ağaclarda.
Şeh düşəndə üstlərinə,
Bağ-bağçalarda meyvələr

Dondurma tək şirin olur,
Sərin olur səhər-səhər.
Göy üzündə ağır-ağır
Qara-boz buludlar gəzir;
Çiskin olur, yağış yağır,
Qırov düşür, külək əsir.
Bağçalarda , meşələrdə
Hər yer yumşaqdır, nəmişdir;
Sanki yerə-allı-güllü
Əlvan xalça döşənmişdir.
Qaranquşlar, boz bülbüllər
Uçur isti ölkələrə;
Ördək, qaz, qu qatar-qatar
Qonaq gəlir bizim yerə.
Bağçalarda boz bülbüllər
Duyur qışın nəfəsini,
Gecə-gündüz oxuyurlar
Bu fəslin son nəğməsini..

*İkinci iştirakçı səhnəyə yaxınlaşaraq "Nəsillərdən nəsillərə" adlı şeiri deməyə başlayır.*

Haqq, Həqiqət, Vətən eşqi,
El məhəbbəti
Nəsillərdən nəsillərə
bir şüar olsun!..
Bu eşq ilə alovlanan
ellər sənəti
nəsillərdən nəsillərə
yadigar olsun!..

*Üçüncü iştirakçı "Şirinbulaq" adlı şeiri deməyə başlayır.*

Gəlin, gəlin, ay uşaqlar,
Qulaq asın, a qoçaqlar,

yaxın gəlin, gəlin sizə
gördüyümdən-bildiyimdən
nəql eləyim, nağıl deyim,
həm qəribə, həm də təzə:

*Dördüncü iştirakçı "Azərbaycan" adlı şeiri deməyə başlayır.*

Azərbaycan,
Ey Vətən,
Sən mənimsən, mən sənin.
Boynumuzda haqqı yox,
Minnəti yox kimsənin!
Bizimdir bu əyilməz
Başı vüqarlı dağlar,
qırqovullu meşələr,
durna gözlü bulaqlar.
Bizimdir ceyran gəzən,
turac süzən düzənlər.
Bizimdir bu cüyürlü,
Kəklikli göy çəmənlər.
Bizimkidir yaşılbaş
Sonalı sədəf göllər.
Dəniz tək dalğalanan.
Bərəkət dolu çöllər.
Dövləti aşıb-daşan
Bu dəniz, çay bizimdir,
mədəniyyət ocağı,
Şən saraylar bizimdir.
Anaların namusu,
pak vicdanı bizimdir.
Dünyaya işıq saçan
Bakı qanı bizimdir.
Bu Vətən, bu əzəmət,
Bu şərəf-şan bizimdir!

Mikayıl Rzaquluzadəni və onun əsərlərini oxuculara tanıtmaq məqsədilə kitabxanada başqa tədbirlər də keçirmək olar. Məsələn, bu məqsədlə kitabxanaçı bir neçə məktəblə sıx əməkdaşlıq edir. O şagirdləri, xüsusən də, yuxarı sinif şagirdlərini kitabxanaya cəlb etməklə şairin əsərləri ilə tanış edir. Kitabxanaya abunə olan şagirdlər Mikayıl Rzaquluzadənin əsərlərini oxuyur, onun yaradıcılığı ilə yaxından tanış olurlar. Bu vaxt ərzində kitabxanaçı yuxarı sinif şagirdləri ilə Mikayıl Rzaquluzadənin bir sıra hekayələrini səhnələşdirə bilər. Məsələn: şairin tərcümə etdiyi rus şair İ.A.Krılovun sevilən əsərlərindən biri olan "Pişik və bülbül" əsasında hazırlanmış səhnəciyi sizlərə təqdim edirik.

Öncə səhnə əsərə uyğun olaraq, dekorasiya ilə bəzənilir. İştirakçılar canlandırdıqları obrazlara uyğun paltarlar geyinirlər. Aparıcı səhnəyə yaxınlaşaraq əsərdən bir hissə deməyə başlayır:

***I iştirakçı:*** Bir gün pişik hardasa bir bülbülü ovladı,
Pəncəsində oxşayıb, bu sayaq mıyovladı:

***II iştirakçı:*** "Ay canım-gözüm bülbül, eşitmişəm ki, səni
Hamı sevir, bəyənir, xoş səsini, nəğməni.
Tülkü lələm deyir ki, olub səsinə heyran,
Zövq alır cəh-cəhindən bağda gül, dağda çoban.
Nə olar, oxu, mən də bir eşidim səsini!
Nə var, niyə qorxursan, çəkmirsən nəfəsini?
Qorxma, səni yemərəm, nəğmənlə et məni şad.
Mən də buraxım səni, get, uç çəməndə azad.
Musiqi aşiqiyəm, bil ki, əzizim, mən də
Zümzümə eyləyirəm, daim yuxum gələndə..."

***I iştirakçı:*** Pişiyin pəncəsində yazıq tir-tir əsirdi,
Necə nəğmə söyləsin, Özü-qəlbi əsirdi.

Pişik yenə dilləndi:

***II iştirakçı:*** "Hə, niyə susdun yenə?
Nə olar ki, a dostum, bircə ağız desənə!.."

***I iştirakçı:*** Bizim yazıq nəğməkar zarıdı-civildədi,
Pişik bunu eşitcək istehza ilə dedi:

***II iştirakçı:*** "Bunamı heyran olub göy meşə, yaşıl çəmən?
Balamdan bu səsləri çox-çox eşitmişəm mən!
Səsindəki o qüdrət, o məlahət bəs hanı?
Sənin ki, nəğmələrin olub dillər dastanı!
Gördüm artıq sənətdə sənin məharətini,
İndi də dadım görüm ətinin ləzzətini!.."

***I iştirakçı:*** Belə deyib o yazıq bülbülü parçaladı,
Yedi, sonra da qanlı pəncəsini yaladı...




Kitabxanada keçiriləcək ənənəvi tədbir forması kimi kitab müzakirəsi də keçirilə bilər. Oxucuların istəyini nəzərə alan kitabxanaçı oxucularla birgə Mikayıl Rzaquluzadədən bəhs edən "Mikayıl Rzaquluzadə Biblioqrafiya" adlı kitabı müzakirə edə bilər. Kitabxanaçı əvvəlcə adı çəkilən bu kitab haqqında məlumat verir:

***Kitabxanaçı:*** Azərbaycan uşaq ədəbiyyatının görkəmli nümayəndəsi, tanınmış şair Mikayıl Rzaquluzadənin həyat və yaradıcılığına həsr olunmuş bu biblioqrafiyada şairin 1923-2018-ci illərdə dərc edilmiş əsərləri və onun haqqında yazılan materiallar öz əksini tapmışdır. Göstərici ədəbiyyatşünas alimlər, tədqiqatçılar, kitabxanaçı-biblioqrafçılar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Mikayıl Rzaquluzadə (Mikayıl Manaf oğlu Rzaquluzadə) biblioqrafiya /tərtib ed.: N.Tahirova, L.Qafarova, T. Əzizova; ixt, red. və burax. Məsul.: Ş.Qəmbərova; red. G.Səfərəliyeva; Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanası.-Bakı, 2018.-240 s.

Azərbaycan nəşrinin görkəmli nümayəndəsi, şair, tərcüməçi, pedaqoq Mikayıl Manaf oğlu Rzaquluzadə müxtəlif mövzularda yazıb-yaratsa da, 1945-ci ildən başlayaraq bütün kitablarını (19 adda) uşaq və gənclər üçün nəzərdə tutmuşdur. Bunlar Vətənə, xalqa, təbiətə məhəbbət, dostluq, sülh və ə min-amanlıq ideyalarını tərənnüm və təbliğ edən əsərlərdir.

Mikayıl Rzaquluzadənin anadan olmasının 115 illiyi ərəfəsində F.Köçərli adına Respublika Uşaq Kitabaxanasının əməkdaşları yazıçının yaradıcılığını tam halda işıqlandırmaq məqsədilə fundamental bibloqrafik vəsaitin tərtibinə qərar vermişlər.

Ədibin ədəbi-ictimai fəaliyyətini tam şəkildə əks etdirən bu fundamental bibloqrafik göstərici 1923-2018-ci illərdə dərc olunan materialları əhatə edir.

Göstərici 4 hissədən ibarətdir:

I Hissə- Mikayıl Rzaquluzadənin əsərləri;

II Hissə- Mikayıl Rzaquluzadə haqqında;

III Hissə- Rus dilində;

IV Hissə-Köməkçi göstəricilər.

Göstəricidə həmçinin şairin Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivi idarəsində toplanan şəxsi arxiv materialları öz əksini tapmışdır.

Biblioqrafiyada “Mikayıl Rzaquluzadə görkəmli şəxsiyyətlər haqqında”, “Görkəmli şəxsiyyətlər, elm və mədəniyyət xadimləri Mikayıl Rzaquluzadə haqqında” adlı bölmələrdə verilmiş materialların müxtəlif oxucu qruplarının marağına səbəb olacağı şübhəsizdir.

Vəsaitdə materiallar bölmələr üzrə xronoloji ardıcıllıqla, daxildə isə əlifba sırasına uyğun olaraq qruplaşdırılmışdır.

Biblioqrafiyadan istifadəni asanlaşdırmaq məqsədi ilə Mikayıl Rzaquluzadənin əsərlərininin və onun haqqında yazan müəlliflərin əlifba göstəricisi tərtib edilmişdir.

Biblioqrafik vəsait geniş oxucu kütləsi-tələbələr, tədqiqatçı-alimlər, bütün ədəbiyyat həvəskarları üçün nəzərdə tutulmuşdur. *"Mikayıl Rzaquluzadə" adlı biblioqrafiyanın tam mətnli linki vəsaitin sonundakı ədəbiyyat siyahısında qeyd olunub.*

Mikayıl Rzaquluzadənin 115 illik yubileyi ilə əlaqədar keçirilə biləcək maraqlı tədbirlərdən biri də ədəbi-bədii gecədir. Bu münasibətlə kitabxanada *"El gücü"* adlı ***ədəbi-bədii gecə*** keçirilə bilər. Tədbirə Azərbaycanın görkəmli ədibləri; şair və yazıçılar, sənət-söz adamları, oxucular, məktəblilər və ümumilikdə poeziyasevərlər toplaşır. Qonaqlar şairin şəkilləri, müxtəlif adda əsər başlıqları və şeir misraları yazılmış çərçivələrlə bəzədilmiş zalda öz yerlərini tuturlar.

***I aparıcı:*** Ağac əkmək,
gül-çiçəklə bəzəmək
talvar qurmaq,
Həyətləri, küçələri yaşıllıqla,
gül-çiçəklə bəzəmək
və bunları qorumaq
yaxşı işdir şübhəsiz.
Hər kim belə bir iş görsə, gərək
Sağ ol!-
deyək
ona biz...

***II aparıcı:*** -Salam, dəyərli qonaqlar, sizləri bu şeirli gecəmizdə xoş gördük!.. Bu il istedadlı ədib, ustad qələm sahibi Mikayıl Rzaquluzadənin115 illik yubileyidir.

Azərbaycanın mədəniyyət tarixində Mikayıl Rzaquluzadənin xüsusi yeri var. O, həm gözəl, yazıçı, həm də tərcüməçi kimi fəaliyyət göstərmişdir. Mikayıl Rzaquluzadə təkcə gözəl şair, nasir, publisist deyil, həm də dünyanın müxtəlif ölkələrində yaşayan və müxtəlif millətlərə mənsub olan saysız-hesabsız yazıçıların əsərlərini dilimizə çevirən bir söz ustadı kimi şöhrət qazanmışdır. O, türk, rus, fars dillərini mükəmməl bilirdi. Həmin dillərdən tərcümə etdiyi əsərlər ədəbi nümunələr Azərbaycan oxucuları tərəfindən maraqla qarşılanırdı.

***I aparıcı:*** Gəlin zəngin yaradıcılıq yolu keçmiş Mikayıl Rzaquluzadənin qələmi ilə dünyanı fəth edən böyük Nizami tərcümələri olan "Hikmətli sözlər" ini dinləyək.

Bu gözəl dünyada varkən hər büsat,
Behiştdə nə üçün əbədi həyat!..

***

Xəzinə kəşf etmək istəsən əgər,-
Hər cür çətinliyə tab et, sinə gər!..

***

Bal yığan arının bircəsi, yəqin,
Yüzündən yaxşıdır bal yeyənlərin.

***

Yaxşısı budur ki, sən ol hər zaman
Qoca ilə qoca cavan ilə cavan.

***

Qoca bir ağaca mişar çəkmə sən,
Zöhhak bunun üçün düşdü təxtindən.

***

Hünərə göz yummaq deyil bir hünər,
İpəyi kiş ilə axmaq dəyişər.

***

Ağıllı adamla etsən xoş rəftar,
Sən öz hünərini edəsən aşkar.

***

Elm ilə, hünərlə!..- başqa cür heç kəs
Heç kəsə üstünlük eyləyə bilməz!

***II aparıcı:*** İnan, günəşə inan!
Nə qədər qaralsa da,
Əsla sönməz heç zaman.
Düz deyiblər atalar:
"Hər qaranlıq gecənin işıqlı gündüzü var!"
İnan, torpağa inan!..

***I aparıcı:***Dəyərli oxucular, indi isə gəlin Mikayıl Rzaquluzadənin görkəmli şəxsiyyətlər haqqında söylədikləri fikirləri dinləyək.

*Abdulla Şaiq* Azərbaycanda uşaq ədəbiyyatının əsasını qoymuşdur. O, uşaq əsərləri ilə yeni nəsillər dil açmağı, göz açmağı, həyatı, insanları tanımadığı, sevməyi öyrədirdi...

Abdulla Şaiq uşaqlıq və gənclik illərində mənim idealım idi və iftixarla deyə bilərəm ki, bir şəxsiyyət olaraq mənim üçün ideal olaraq qalır.

Xalqımızın ən əziz oğlu *Səməd Vurğunun* sənətinə və şəxsiyyətinə olan sonsuz məhəbbətimin əsl səbəbi-onun yaradıcılıq istedadından daha üstün fitri istedada malik olmasıdır. Ki, bunun da bircə adı var: El sevgisi!..

Xalqımızın iftixarı olan böyük sənətkarımız Cəfər Cabbarlı bütün yaradıcılığında, ölkəmizin sinəsindəki əbədi odlar kimi qaynayan bu müqəddəs məhəbbət: insan eşqi, məslək eşqi, azadlıq eşqi, vətən eşqi kimi təzahür etməkdədir: oktayları, aydınları, sevilləri, almazları, yaşarları, elxanları... ən çətin mübarizələrdən qalib çıxaran da həmin bu qadir məhəbbətdir.

Əsərləri yalnız respublikamız daxilində deyil, ümumittifaq ölçüsündə ciddi yaradıcılıq məsələlərinin müzakirəsinə səbəb olan sənətkarlarımızdan, Xalq şairimiz *Rəsul Rzanın* yeni

şeirləri də hər çəhətdən, xüsusən bu nöqteyi-nəzərdən də diqqətəlayiqdir.

*Mirvarid Dilbazinin* istər xırdaca balalar, istər yaşlılar üçün müxtəlif mövzu ilə janrda yazdığı bütün əsərlərində yalnız istedadlı bir şair qəlbinin deyil, həm də həssas və riqqətli bir ana qəlbinin çırpıntıları duyulur və xüsusiyyət onun bütün şeirlərinə ayrı bir hərarət və səmimiyyət verir.

*Nigar Rəfibəyli* qadınlıq mövzusuna həsr edilmiş şeirlərində onların yalnız yüksək arzu və əməllərini ifadə etməklə kifayətlənməyib, tarixdə və müasir həyatda, beynəlxalq sülh və azadlıq mübarizəsində, faşizmə və mürtəce qara qüvvələrə qarşı vuruşan konkret qəhrəman qadın şairlərini böyük bir məhəbbətlə tərənnüm edir.

Azərbaycan Elmlər Akademiyasının bir çox tarixi hadisələrə şahid olmuş böyük salonunda Respublika elmi ictimaiyyəti *Yusif Məmmədəliyevi* Sovet ölkəsinin irəlidə gedən bir alimi kimi təbrik edir...

Yusifin kimya elmi sahəsindəki böyük nailiyyətləri, bunların mahiyyət və əhəmiyyətini göstərmək, əlbəttə, mütəxəssis alimlərin öhdəsinə düşən şərəfli bir vəzifədir.

Böyük ustad sənətkar *Maksim Qorki* dünya tarixinin yeni bir dövrünün proletar sosialist inqilabi dövrünün coşqun bir nəğməkarı və bayraqdarıdır, həmişə də belə qalacaqdır.

*Mayakovskinin* irsi dünya ədəbiyyatında misli az olan ölməz əsərlərdir. Dünyanın bütün xalqlarının tərəqqipərvər sənətkarları onun əsərlərini yalnız tərcümə etməklə kifayətlənmir. Mayakovski ruhunda yüksək məfkurəli, mübariz məzmunlu, bədii keyfiyyətli şeir yaratmaqla, onun ölməz işini davam etdirir, onu yaşadırlar.

***II aparıcı:*** Dünyada qəribə işlər var;
Bir aslanın ürəyini çaqqal caladılar.
işi düzəldi.

Çaqqal sağaldı, dirçəldi.
Aslan kimi gəzməyə başladı vüqarla.
Durub-oturmadı daha
Tülkü kimi,  çaqqal kimi
Cana-cuna heyvanlarla.
Onlara gülürdü.
Özünü doğurdan aslan bilirdi.
Həqiqi aslan kimi də nərildəyirdi də hərdən,
Gecələr, yuxuda...
Çünki ayrılıqda utanırdı özündən
Şəklini görəndə suda...

## Ədəbiyyat siyahısı

http://clb.az/dosyalar/1737.pdf

# Təbiət aşiqi Mikayıl Rzaquluzadə

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 11
Çapa imzalanmışdır: 16.03.2020
Tirajı:100
Pulsuz